# Zərdabın yaz qayğıları

## *Bugünədək 500 hektardan çox sahədə çiyid səpini aparılmışdır*

***Zərdab Rayon İcra Hakimiyyətindən bizə təqdim olunan siyahıda Bəyimli qəsəbəsinin adı birinci yazılmışdı. Sözün düzü, bu, məni sevindirdi. Yadıma ötən ilin pambıq yığımı mövsümü düşdü. Məsələ burasındadır ki, Bəyimli qəsəbəsinin fermerləri respublika üzrə pambıq yığımına birinci başlamışdılar. Biz bu barədə operativ reportaj da hazırlamışdıq. Budur, həmin qəsəbənin fermerləri bu il çiyid səpininə də birincilər sırasında başlamışlar. Ona görə də yenə yolumuzu birinci həmin qəsəbədən saldıq.***



Sahənin kənarındakı iri söyüd ağacının kölgəsində dayanmışıq. Çiyidsəpən aqreqat vaxtında şumlanmış, arat edilmiş, ovuc içi kimi təmiz və hamar torpağın sinəsi ilə aram-aram irəliləyir. Hərdən aqreqatın yanı ilə addımlayan qarabəniz, itibaxışlı, qıvraqgörkəmli adam əlinin işarəsi ilə mexanizatoru dayandırır, nəsə məsləhətləşir, yenidən irəliləyirdilər. Yol yoldaşım əlini qabağa uzatdı:

– Bax, o gördüyünüz Daşqın Əsədovdur, – dedi, – bu il ilk dəfədir ki, bu yerlərə çiyid səpir. Bizi gördü, yəqin, indi özü də gəlib çıxar…

**Ancaq Daşqın yol yoldaşımın dediyi kimi, o qədər də tez qayıtmadı. Çiyidsəpən aqreqat sahənin o başından dövrə vurub bizə tərəf gələnə qədər ondan ayrılmadı.**

– Bərəkətli olsun, əkinçi qardaş.

– Sağ olun. Xoş gəlmisiniz.

– Deyəsən, səpini qurtarırsınız.

– Axırıncı hektarlar qalıb.

Öyrəndik ki, ötən il Daşqın Əsədov 15 hektarda pambıq yetişdirib. Bu il isə əkin sahələrini genişləndirərək 60 hektara çatdırıb.

– Bizi ruhlandıran, maraq və həvəs oyadan Prezident İlham Əliyevin kənd təsərrüfatının, xüsusilə pambıqçılığın inkişafına göstərdiyi gündəlik diqqət və qayğıdır. Bu ilin mart ayında Saatlıda keçirilən respublika müşavirəsi dediklərimi bir daha təsdiq edir. Gördüyünüz kimi, səpini birincilər sırasında yekunlaşdırırıq. Yaxşı bilirik ki, erkən səpin keyfiyyətli və bol məhsul deməkdir. İnanırıq ki, məhsul yığımına da birinci başlayacağıq. Maşın-mexanizm, gübrə və s. baxımından da heç bir çətinliyimiz yoxdur.

**Bura isə Şahhüseynli Kənd Bələdiyyəsinin əkin sahələridir.** Çiyid səpininə də birincilər sırasında başlayıblar. Qabaqcıl fermerlərdən Həbib İsayevlə tanış oluruq.

– Zərdabda pambıqçılığın tarixi qədimdir. Bizim camaatda bu sahəyə xüsusi həvəs və maraq var. Təsadüfi deyil ki, pambıqçılığın gözdən düşdüyü illərdə də kəndlərimizin hamısında bu məhsul əkilib-becərilirdi. Düzdür, əkin sahələri xeyli azalmışdı. Bunun səbəbləri isə hamımıza yaxşı məlumdur.

İndi isə vəziyyət tamamilə başqadır. Ölkə başçısı İlham Əliyevin kənd təsərrüfatının, xüsusilə strateji sahə olan pambıqçılığın inkişafına göstərdiyi gündəlik diqqət və qayğı, bu istiqamətdə imzalanmış fərman və sərəncamlar, qəbul edilmiş dövlət proqramları bizi daha da ruhlandırmış, əlavə güc və stimul vermişdir. Bircə misal çəkilir: Rayonumuzda elə bir fermer tapmaq olmaz ki, pambıq əkini sahələrini keçən ilə nisbətən 2 – 3 dəfə artırmasın.



**Elə Həbib İsayevin özünü götürək.** Ötən il o 23 hektarda pambıq yetişdirmişdi. Bu il isə əkin sahələrini 96 hektara çatdırıb. Məhsuldarlıq da ötən ildəkindən yüksək olacaqdır–hər hektardan 30 sentner məhsul əldə etmək nəzərdə tutulmuşdur.

**Biz Gəlmə kəndində Abdul Orucovun təsərrüfatında da olduq.** Artıq neçə ildir ki, burada pambıq sahələrinin genişləndirilməsi, eyni zamanda, məhsuldarlığın artırılması diqqət mərkəzində saxlanılır. Düzdür, fermerin dediyinə görə, onlar başqa kənd təsərrüfatı bitkiləri də əkib-becərirlər. Ancaq əsas diqqət pambıqçılığın inkişafına yönəldilib. Elə söhbətimiz də bu barədə oldu:

– Burda torpaq da, su da, hava da elə bil məhz pambıqçılıq üçündür. Düzdür, Zərdab torpağında taxılçılıq, meyvə-tərəvəz, bağ-bostan bitkiləri də məhsuldardır. Sözün düzü, bizdə pambıqçılığın inkişaf etdirilməsinə imkan və şərait daha çoxdur. İstər adamların bilik və təcrübəsi baxımından, istərsə də torpaq və iqlim cəhətdən.

Elə bu həvəs və marağın nəticəsidir ki, fermer bu il pambıq əkini sahələrini 40 hektar artıraraq 60 hektarayüksəldib. İşin gedişi ilə tanışlıq göstərdi ki, onlar çiyid səpinini yaxın günlərdə başa çatdıracaq.

**Biz rayonun İsaqbağı, Çallı, Məmmədqasımlı, Körpükənd, Bıçaqçı kəndlərində də olduq, çiyid səpininin gedişi ilə maraqlandıq, kənd adamları, fermer və sahibkarlarla söhbət etdik.** Hər yerdə də yüksək mütəşəkkiliyin, ruh yüksəkliyinin şahidi olduq. Bütün bunlar isə belə deməyə əsas verir ki, Zərdab pambıqçıları bu il üçün nəzərdə tutulmuş vəzifələri uğurla yerinə yetirəcəklər.

Yeri gəlmişkən, onu da əlavə edək ki, rayonda digər kənd təsərrüfatı bitkiləri əkini və sahələrə qulluq edilməsi də uğurla gedir, gələcək bol məhsulun əsası qoyulur. Bəzi rəqəm və göstəricilərə diqqət yetirək.

2016-cı ildə çiyid səpininin gec aparılmasına, havaların əlverişsiz keçməsinə, texnika çatışmazlığına baxmayaraq, rayonda digər kənd təsərrüfatı məhsulları istehsalının azalmasına yol vermədən, 832 hektar sahədə pambıq əkilməsi təmin edilmişdi. Pambıqçılar yüksək əzmkarlıq nümayiş etdirmiş, 900 ton pambıq yığaraq tədarükçülərə təhvil vermişlər. Pambıqçılığın inkişafına göstərilən diqqət və qayğı nəticəsində ötən il rayonun 1500-ə yaxın sakini işlə təmin olunmuş, pambıq əkinindən 64 nəfər mülkiyyətçi 200 min pamata yaxın gəlir əldə etmişdir. 2016-cı ildə istehsal olunan məhsula görə 87,1 min manat həcmində subsidiya hesablanmışdır.

Ötən il, bütövlükdə, respublikada, eləcə də Zərdab rayonunda kənd təsərrüfatının, xüsusilə pambıqçılığın və baramaçılığın inkişafında dönüş ili olmuş, dövlət başçısının diqqət və qayğısı nəticəsində həyata keçirilən məqsədyönlü tədbirlər bu sahələrin inkişafına güclü təkan vermişdir. Ölkə Prezidenti tərəfindən qarşıya qoyulmuş mühüm vəzifələrin, eləcə də 2016-cı ilin sentyabrın 17-də Sabirabad rayonunda, cari ilin mart ayının 28-də Saatlıda keçirilən müşavirələrdə verilən tapşırıqların həllinə nail olmaq üçün respublikamızın hər yerində olduğu kimi, Zərdabda da bir sıra tədbirlər həyata keçirilmiş və bu istiqamətdə işlər hazırda da davam etdirilir. Rayon icra hakimiyyəti başçısının sərəncamı ilə qərargah yaradılmış, müvafiq tədbirlər planı təsdiq edilmişdir. Nəzərdə tutulmuş hər bir məsələnin vaxtında və düzgün yerinə yetirilməsi istiqamətində ciddi hazırlıq aparılır, görülən işlər vaxtaşırı RİH başçısı yanında yaradılmış xüsusi qərargahda müzakirə olunur.

Pambıqçılığın inkişaf etdirilməsi üçün sahələrdən səmərəli istifadənin təşkili məqsədi ilə torpaqların monitorinqi aparılmış, ilk növbədə, münbit və suvarma təminatı olan torpaqlarda əkin aparılmasına üstünlük verilmişdir. Yararlı örüş və otlaq sahələrində pambıq və digər strateji bitkilərin əkilməsi üçün araşdırmalar aparılmışdır. Xüsusi qərargah tərəfindən yerlərdə aparılmış araşdırmalar nəticəsində istifadə edilməyən torpaq sahələri müəyyənləşdirilmiş və əkin dövriyyəsinə daxil edilməsi işi sürətləndirilmişdir.

Vaxtilə qış otlaq sahəsi kimi Qəbələ rayonunun istifadəsində olan 8039,2 hektardan düzgün və səmərəli istifadə olunmadığı və Torpaq Məcəlləsinin 73-cü maddəsinin müvafiq bəndlərinin tələbləri pozulduğu üçün 53 nəfərlə bağlanmış icarə müqavilələri ləğv edilmişdir.



Rayon ərazisində əkin üçün nəzərdə tutulmuş sahələr məhdud olduğundan, torpaqların təyinatının dəyişdirilməsi zərurəti yaranmışdır. Odur ki, rayonun Bəyimli qəsəbəsi ərazisində yerləşən əkinə yararlı 8100 hektar dövlət fondu və həmin əraziyə bitişik 2497 hektar bələdiyyə torpağının, eyni zamanda Regional Meşəsalma Müəssisəsinin balansına daxil edilmiş 1773 hektar sahəinin daimi su təminatı olan 1000 hektarının təyinatının dəyişdirilməklə əkin dövriyyəsinə cəlb olunması üçün Nazirlər Kabinetinə məktubla müraciət edilmişdir.



Ümumiyyətlə, gələcəkdə pambıq əkiləcək sahələrin su təminatının və meliorativ vəziyyətinin öyrənilməsi məqsədi ilə araşdırmalar aparılmış, bu istiqamətdə işin düzgün təşkil edilməsi üçün 3 layihənin həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir. Artıq həmin layihələrdən birinin icrasına başlanılmışdır. Belə ki, rayonun Bəyimli qəsəbəsi ərazisində 10 min hektar sahənin suvarma suyu ilə təmin edilməsi üçün Təzəkənd ərazisində Kür çayından 15 kilometr məsafəyə su xəttinin çəkilməsi layihəsini “Azərsu” ASC icra edir.

Yaxın günlərdə burda işlər başa çatdırılacaqdır. Əlvənd və Otmanoba kəndinin 709 hektar əkin sahəsinin su təminatını yaxşılaşdırmaq məqsədilə 3,4 kilometr kanalların yeniləri ilə əvəz edilməsi işlərinə başlanılmış və artıq 1,5 kilometrə yaxın məsafədə təmir-bərpa işləri aparılmışdır. Bəyimli qəsəbəsi ərazisindəki əkinəyararlı 3378 hektar torpaq sahəsinin, o cümlədən 3300 hektar dövlət fondu, 60 hektar pay, 18 hektar bələdiyyə torpağının suvarma suyu ilə təmin edilməsi məqsədilə rayon icra hakimiyyəti müvafiq təkliflər hazırlamışdır.



Pambıq əkilməsi nəzərdə tutulan sahələrin su təminatını yaxşılaşdırmaq məqsədi ilə Suvarma Sistemləri İdarəsi lazımi tədbirlər görmüşdür. 378 kilometr suvarma kanalı lildən təmizlənmişdir. Aqqreqatların fasiləsiz işini təmin etmək məqsədi ilə 43 nasos, 7 elektrik mühərriki əsaslı təmir edilmiş, 4 ədəd nasos aqreqatı yenilənmişdir.

Suvarma mövsümünü mütəşəkkil həyata keçirmək və pambıq sahələrinin arat olunmasını vaxtında başa çatdırmaq məqsədilə suvarma sistemləri idarəsinin məsul işçiləri çiyid səpini aparılacaq sahələrə təhkim olunaraq, torpaqqazanlarla su kanallarının təmizlənməsi işlərini həyata keçirirlər.

Rayonda 2017-ci il üçün nəzərdə tutulmuş 3 min hektarda pambıq əkini aparmaq məqsədi ilə “MKT IK” MMC və “Zərdab-Pambıq” ASC ilə 463 torpaq mülkiyyətçisi arasında müqavilə bağlanmışdır.

2016-cı ilin məhsulu üçün 17007 hektar sahədə payızlıq taxıl əkilmiş, 52101 ton taxıl istehsal olunmuşdur ki, bu da əvvəlki ildəkindən 2251 ton çoxdur. Hər hektardan məhsuldarlığı 30,6 sentner olmuşdur.

İpəkçiliyin inkişaf etdirilməsi ilə bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində ötən il rayonda xeyli iş görülmüşdür. Bölgü üzrə rayon üçün 20 qutu nəzərdə tutulduğu halda, 150 qutu inkubasiya olunmuş barama qurdu toxumu kümçülərə paylanmışdır. Nəticədə, 5710 kiloqram barama yığılaraq “Şəki-İpək” ASC-yə təhvil verilmişdir. Kümçülərə 45680 manat vəsait ödənilmiş, 225 nəfər rayon sakini mövsümü işlərdə çalışmışlar. 2017-ci ildə bol barama məhsulu istehsal etmək üçün onun yem bazasını möhkəmləndirmək məqsədi ilə rayon üzrə 263,7 min ədəd, o cümlədən RİH 251,6 min ədəd, Regional meşəsalma müəssisəsi 12,1 min ədəd tut tingi əkmişdir.

Ümumiyyətlə, keçən il 195 hektardan 3685 ton kartof, 154 hektardan 2453 ton tərəvəz, 31 hektardan 80 ton günəbaxan, 234 hektardan 7567 ton bostan məhsulları, 454 hektardan 3087,5 ton qarğıdalı, 70,5 hektardan 252 ton çəltik tədarük olunmuşdur ki, bu da əvvəlki ildəkindən çoxdur. Mal-qaranın baş sayı və heyvandarlıq məhsulları istehsalı da artan surətlə gedir.

**İş gününün sonunda Zərdab Rayon İcra Hakimiyyətinə gəldik, burada yaradılmış qərargahda olduq. İcra hakimiyyətinin başçısı Lütvəli Babayev qarşısındakı kağızları, rəqəm və göstəriciləri nəzərdən keçirib yüksək əhval-ruhiyyə və nikbinliklə ayağa durdu:**

– Martın 28-də Saatlıda Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi bizdən fəaliyyətimizə yenidən nəzər salmağı, daha fədakar və məsuliyyətlə çalışmağı, yeni hədəflər uğrunda mübarizə aparmağı tələb edir. Zərdab ənənəvi kənd təsərrüfatı rayonudur. Əkinçilik və heyvandarlıq bu bölgənin iqtisadiyyatında əsas yer tutur. Son illərin iqtisadi göstəriciləri, fakt və rəqəmlərin müqayisəli təhlili bir daha göstərir ki, azad sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı öz müsbət nəticələrini verməkdədir.

Prezident İlham Əliyevin ölkənin kənd təsərrüfatı, xüsusilə pambıqçılığın inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar, göstərdiyi gündəlik diqqət və qayğı fəaliyyətimizin əsas istiqamətini təşkil edir. Tərəddüdsüz deyə bilərəm ki, builki göstəricilərimiz daha yüksək olacaqdır.

...Hər ilin öz gəlişi, öz sözü, öz bərəkəti olur. Bu il Zərdabın baharı çox şey vəd edir: ötənilkindən artıq bərəkət, bolluq, bir də torpaqla insanın ülfətindən yaranan sevinc.

*Ziyəddin SULTANOV,*
*“Xalq qəzeti”nin*
*bölgə müxbiri*